**«BizNewsAsia»:**
**Azərbaycan iqtisadiyyatı modernləşdirilir**

Dünyanın ən böyük tirajla yayılan nəşrlərindən olan «BizNews Asia» jurnalı növbəti xüsusisi buraxılışını respublikamıza həsr edib. Filippində ingilis dilində dərc olunan nüfuzlu nəşrdə Azərbaycanın iqtisadi, sosial, siyasi və humanitar sahələrdə əldə etdiyi nailiyyətlər, həyata keçirdiyi kompleks islahatlar, dünyada artan nüfuzu ilə bağlı materiallara geniş yer verilib. Jurnalda ölkəmizin dünyanın enerji təhlükəsiliyində mühüm rolu, beynəlxalq humanitar forumların təşkilində fəal iştirakı və sivilizasiyalararası dialoqun genişlənməsinə verdiyi töhfə xüsusi qeyd olunub.

Nəşrdə vurğulanır ki, Azərbaycanda həyata keçirilən strateji tədbirlərin fonunda ölkə iqtisadiyyatı modernləşdirilir, işsizlik və yoxsulluq probleminin tam aradan qaldırılması istiqamətində ciddi işlər görülür. Dünyanı bürümüş iqtisadi böhran şəraitində ölkədə istər enerji sahəsində, istərsə də qeyri-neft sektorunda, xüsusilə də təhsil, səhiyyə, kənd təsərrüfatı, maliyyə və bank sektorunda uğurlu irəliləyişlər olub, islahatlar həyata keçirilib. Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, insanların hüquq və azadlıqlarının qorunması, məhkəmələrin modernləşdirilməsi istiqamətində xeyli işlər görülüb. Hazırda Azərbaycan rəqabətlilik qabiliyyətinə görə dünyanın 144 ölkəsi arasında 46-cı yerdə qərarlaşıb. Bu, postsovet məkanı ölkələri sırasında ən yüksək göstəricidir, Avropa Birliyinin üzvü olan bir sıra ölkələrin göstəricilərini isə arxada qoyur. Hökumətin iqtisadi siyasətində çoxşaxəli inkişafı təmin etmək üçün qeyri-neft sektorunda artıma nail olmaq xüsusi yer tutur. Son illər ərzində qeyri-neft sektorundakı irəliləyişlər bu sahənin qarşıdakı yeni inkişaf fazasında dominant rol oynayacağına zəmin yaradır.

«BizNewsAsia» jurnalında Azərbaycanda əlverişli investisiya və biznes mühitinin yaradılmasına geniş yer verilib. Nəşrdə qeyd olunur ki, Azərbaycan bölgədə potensial sərmayədar ölkə kimi çıxış edir. Azərbaycanın investisiya imkanları çox cəlbedicidir. Bu, xarici sərmayə qoyuluşlarının artım dinamikası üçün əlverişli imkanlar yaradır. İnvestisiya sahəsində həyata keçirilən tədbirlər və bu bölmədə sərmayə cəlbediciliyinin yüksəldilməsi Azərbaycanın maliyyə sabitliyinin möhkəmlənməsinə təkan verib, xarici investorların ölkəyə marağının artmasına zəmin yaradıb.

Nəşrdə «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasının əhəmiyyətinə də toxunularaq qeyd olunub ki, bu sənəd perspektiv inkişaf üçün qarşıya bir sıra strateji vəzifələr qoyur. İnkişaf Konsepsiyası yeni onilliyin sosial-iqtisadi, ictimai-siyasi, elmi-mədəni, humanitar sektorlarında həyata keçirilməsi hədəf seçilən tədbirlərin müəyyən edilməsini nəzərdə tutur. Qarşıdakı dövrdə Azərbaycan iqtisadi, maliyyə, yüksək sosial inkişaf indikatorları ilə yeni milli modeli tətbiq etməklə keyfiyyətli iqtisadiyyat qurmaq niyyətindədir. Bu dövrün yüksək iqtisadi artım ilə müşayiət olunması, sosial infrastrukturun keyfiyyətcə yenilənməsi və modernləşməsi, innovativ iqtisadiyyatın yaradılması ölkənin yüksəlişini təmin edəcək.

Qeyd edək ki, «BizNewsAsia» öz xüsusi buraxılışını dünyanın inkişaf etmiş ölkələrinə həsr edir. Jurnal beynəlxalq aləmdə ciddi biznes və iqtisadi tərəfdaşlıq, sosial, mədəni, turizm, İKT və digər sahələrdə sanballı inkişafa nail olmuş dövlətlərin ictimai-siyasi, iqtisadi-sosial həyatına böyük yer verir. Bu mənada, «BizNewsAsia» jurnalının ölkəmizə də geniş yer ayırması təsadüfi deyil. Azərbaycanın düşünülmüş iqtisadi siyasət həyata keçirməsi sayəsində əldə etdiyi mühüm uğurlar, yüksək makroiqtisadi nailiyyətlər, sistemli və köklü islahatların reallaşması nəticəsində bütün sektorlarda əldə olunan müsbət meyillər, şəffaf biznes mühiti, rəqabətliliyin möhkəmlənməsi, insan inkişafı göstəriciləri, eləcə də digər parametrlər jurnalın xüsusi tədqiqat mövzularındandır.

Elbrus CƏFƏRLİ